# Dənizkənarı Bulvar öz gözəlliyi ilə qonaqları heyran edəcəkdir

Paytaxtımızda birinci Avropa Oyunlarının keçirilməsi ölkəmiz üçün, ümumiyyətlə, bütün Avropa Olimpiya Hərəkatı üçün tarixi hadisədir. Avropanın tarixində ilk dəfə keçirildiyinə görə, Bakıda təşkil olunacaq birinci Avropa Oyunları xüsusi əhəmiyyət daşıyır. Sözsüz ki, birinci Avropa Oyunları ilə qitənin idman tarixində yeni səhifə açılacaq. Bu yarışdan sonra respublikamızın idman ölkəsi kimi nüfuzu qitənin sərhədlərini də aşaraq dünyada ikiqat artacaq. İlk Avropa Oyunlarında 50 ölkədən 6 mindən çox idmançı 20 növ üzrə 253 dəst medal uğrunda mübarizə aparacaq. İdman növlərindən 11-i üzrə 2016-cı il Rio-de-Janeyro Olimpiya Oyunlarına lisenziya qazanmaq imkanı olacaqdır.

Məlum olduğu kimi, ölkə Prezidenti cənab İlham Əliyevin 17 yanvar 2013-cü il tarixli sərəncamı ilə birinci Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üçün Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım sədrlik edir. Artıq nəzərdə tutulan bütün işlər yüksək səviyyədə həyata keçirilmişdir. Avropanın idman ictimaiyyətinin nümayəndələri Bakının ev sahibliyi edəcəyi birinci Avropa Oyunlarının əhəmiyyətini vurğulamaqla yanaşı, ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın rəhbərliyi altında görülmüş işləri yüksək qiymətləndirirlər. Ölkə Prezidenti cənab İlham Əliyev Bakıda keçiriləcək birinci Avropa Oyunlarının hazırlıq işlərinə toxunaraq demişdir: "Təşkilat Komitəsi çox fəal işləyir, bütün vəzifələri icra edir. Bütün dövlət qurumları bu işdə fəal iştirak edirlər... Biz Avropa Oyunlarını Yay Olimpiya Oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Bu Oyunlar bir Avropa bayramına çevrilməlidir. Azərbaycan burada yenə də liderlik keyfiyyətlərini göstərir. Çünki Avropa Oyunlarının standartları əslində Bakıda qoyulacaq. Çünki heç vaxt bu günə qədər belə oyunlar keçirilməmişdir. Bu oyunlar müxtəlif səviyyədə keçirilə bilərdi. Ancaq biz istəyirik ki, bu möhtəşəm idman bayramı möhtəşəm dostluq bayramına çevrilsin. Buna böyük ehtiyac vardır... Hesab edirəm ki, bu tədbirdə iştirak edəcək idmançılar, qonaqlar Azərbaycanla, əlbəttə ki, tanış olacaqlar və Azərbaycanın uğurlu inkişaf modelini görəcəklər".

Birinci Avropa Oyunları Azərbaycanın, bütövlükdə qitənin sosial-mədəni həyatında əlamətdar bir hadisə olacaqdır. Müstəqil Azərbaycanın adı bu möhtəşəm beynəlxalq tədbirin ilk təşkilatçısı kimi dünyanın idman tarixinə qızıl hərflərlə yazılacaqdır. Belə bir qənaətə gəlmək olar ki, Azərbaycanda idmanın inkişafı yeni mərhələyə qədəm qoyub. Daha dəqiq ifadə etsək, Azərbaycanda idmanın yeni epoxası başlanıb. Bu isə o deməkdir ki, Azərbaycanda digər sahələr kimi, idman da getdikcə irəliləyir, uğurdan-uğura, qələbədən-qələbəyə doğru gedir.




Birinci Avropa Oyunlarının ölkəmizdə təşkil edilməsi hər birimiz üçün qürurverici faktdır. Bu eyni zamanda ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi, həmçinin ulu öndərimiz Heydər Əliyevin idman siyasətinin təntənəsidir. Odur ki, ümummilli liderimiz Heydər Əliyev vaxtilə deyirdi: "İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanı müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur".

Məlum olduğu kimi, respublikamızın bütün bölgələrini gəzən, böyük coşqu ilə qarşılanan Məşəli iyunun 7-də Dənizkənarı Milli Parkda ölkə Prezidenti İlham Əliyev qəbul etdi.

Sözsüz ki, paytaxta gələn qonaqlarımız Bakının əvəzsiz incisi olan Dənizkənarı Bulvara da üz tutacaqlar. Belə ki, iyunun 1-də ölkə Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Bakı Ağ Şəhər Bulvarının açılışı olmuşdur. Yeni "Ağ Şəhər Bulvarı" layihəsi çərçivəsində işlər yüksək zövqlə görülüb və bulvar ən müasir standartlara uyğun şəkildə salınıb. Bakı Ağ Şəhər Bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 33 hektardır. Yeni bulvarın bərpa edilən zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq "Bakı Ağ Şəhər" layihəsini tamamlayır. Həmçinin, bu layihənin reallaşması paytaxtımızın simasını daha da gözəlləşdirir. Bakı Ağ Şəhər Bulvarı Ağ şəhərdən mavi Xəzərin sahillərinə açılan mənzərəni daha da gözəlləşdirir, cazibədar edir. Odur ki, son dərəcə müasir olan bu istirahət məkanının səbirsizliklə gözlənilən birinci Avropa Oyunları ərəfəsində istifadəyə verilməsi şəhərimizə gələn turistlərin istirahətinin yüksək səviyyədə təmin edilməsindən xəbər verir.



İyunun 8-də isə ölkə Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Bayıl Bulvarının açılışı olmuşdur.

Onu da qeyd edim ki, respublikamızda, xüsusilə paytaxtda birinci Avropa Oyunlarına hazırlıq Dənizkənarı Bulvardan da yan keçməyib. Məhz bu möhtəşəm tədbirin keçirilməsi üçün 3 böyük idman meydançası - Bakı İdman Sarayı, "Kristall Holl" İdman-Konsert Kompleksi və yeni bulvarda tikilmiş Su Oyunları Stadionu məhz bulvar ərazisindədir.

Bakının simvollarından biri olan Dənizkənarı Bulvarın görkəmi ildən-ilə dəyişir. Odur ki, müxtəlif dövrlərdə dənizkənarı bulvarda genişləndirmə, abadlıq-quruculuq işləri aparılmışdır. Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2008-ci il tarixli fərmanı ilə Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi yaradılmışdır. Dənizkənarı bulvar bu gün sakinlərin və qonaqların ən çox xoşladıqları gəzinti və istirahət yerlərindən biridir. Bu park Bakının əvəzsiz incisi olmaqla yanaşı, onun tarixi və müasir simasını təşkil edən xüsusi məkandır.

1998-ci il dekabrın 29-da ulu öndərimiz Heydər Əliyev Dənizkənarı Bulvara Azərbaycanın milli sərvəti kimi "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında", Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq Milli Park statusu verilməsi haqqında fərman imzalanmışdır.



Məhz bundan sonra görülən işlər sayəsində Dənizkənarı Milli Parkın siması tamamilə dəyişmiş, müasir infrastruktur və bağ-park estetikasının ən yaxşı nümunələri ilə zənginləşmişdir.

Dənizkənarı Milli Parkda aparılan yenidənqurma işləri ölkə Prezidenti cənab İlham Əliyevin də daim diqqət mərkəzində olmuşdur. Belə ki, dövlətimizin başçısı bir neçə dəfə dənizkənarı parkda olmuş, aparılan abadlıq-quruculuq işləri ilə maraqlanmış, tapşırıq və tövsiyələrini vermişdir.

Bu ilin may ayının 15-də "Bulvar Hotel"in açılış mərasimində ölkə Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişdir. Açılışda dövlət başçısı cənab İlham Əliyev demişdir: **"Hotelin yerləşməsi çox gözəldir. Ağ Şəhər Bulvarında yerləşir. Bu da yenilikdir. Çünki bildiyimiz kimi, bu ərazilərdə vaxtilə sənaye müəssisələri, zövq oxşamayan digər tikililər olmuşdur. İndi isə bütün ərazi ictimai zona, bulvarın davamı kimi Bakının sakinlərinin sərəncamına verilir. Ağ Şəhər Bulvarı nadir bir memarlıq əsəridir, əslində Bakı Bulvarının davamıdır. Bu gün Ağ Şəhər Bulvarı, köhnə bulvar, yeni bulvar, Bayraq Meydanı Bulvarı və Bakı Bulvarı vahid bir kompleks təşkil edir. Uzunluğu isə 16 kilometrə bərabərdir. Müqayisə üçün deyə bilərəm ki, 100 il bundan əvvəl salınmış Bakı bulvarının uzunluğu cəmi 3,5 kilometr olub. Yəni, bütün bu ərazilərdə vaxtilə sənaye müəssisələri var idi ki, onlar köçürüldü və bu gün dünya miqyasında Bakı Bulvarı kimi ikinci gözəl yer, ikinci gözəl bulvar yoxdur".**

Dənizkənarı Bulvar İdarəsinin fəaliyyətinin əsas istiqaməti bulvarın ümumi vəziyyəti, qorunması və bərpası ilə bağlı zəruri tədbirlər və bulvarın tarixi simasının saxlanılması, ərazinin zəngin florasının, təbii landşaftının bərpasını, inkişaf etdirilməsini təşkil edir. Fəaliyyətə başladığı 7 ilə yaxın müddət ərzində gərgin əməyin nəticəsində bulvarda geniş abadlaşdırma işləri aparılıb, dənizkənarı zolaqlar yeni müasir daş örtüyü ilə döşənib, yeni gözoxşayan əyləncə, istirahət obyektləri tikilib, əhalinin mənəvi-estetik tələbatının ödənilməsi, istirahətinin təşkili, sağlamlığının möhkəmləndirilməsi üçün şərait yaradılıbdır. Sahilboyu işıqlandırma, yeni fəvvarələr, digər yeniliklər bulvarın görünüşünü dəyişib, dəniz gəzintisindən görünən Bakının mənzərəsini daha da gözəlləşdirib. Bulvarın demək olar ki, simvoluna çevrilmiş "Mirvari" kafesi, "Venesiya" su şəhərciyi əyləncə və istirahət məkanı, dənizin içərisinə doğru uzanan estakada, bir çox başqa əyləncə yerləri və attraksionlar, gözəl yaşıllıqlar zolağı, fəvvarələr, hovuzlar bulvarın ən gəzməli və görməli yerlərindəndir.

Bu gün aparılan uğurlu abadlıq və quruculuq işləri sayəsində paytaxt Bakı öz görkəmini dəyişmiş və dünyanın ən gözəl şəhərləri sırasında yerini möhkəmləndirmişdir. İstər yerli sakinlər, istərsə də paytaxtımıza gələn qonaqlar Bakı Bulvarı, Qız qalası, İçərişəhər, Şirvanşahlar Sarayı və digər arxitektura tikililərinin valehedici gözəlliyi ilə fəxr edir.

Bulvarda aparılan abadlıq-quruculuq işləri nəticəsində əsaslı şəkildə yenidən qurulan "Kiçik Venesiya şəhərciyi" bilavasitə gözəl nümunələrdən biridir. 1960-cı illərdə salınan şəhərcik Milli Parka gələnlər üçün sevimli istirahət yerinə çevrilmişdir. "Kiçik Venesiya şəhərciyi"nin əvvəlki görkəmi saxlanılmaqla yeni elementlərlə zənginləşdirilmiş, kanallar genişləndirilmiş, dərinləşdirilmiş və bura müasir qayıqlarla təchiz edilmişdir. Bir sözlə, şəhərcikdə mənalı istirahət üçün hər cür şərait yaradılmışdır. Milli ornamentlərlə bəzədilmiş şəhərcikdə kanalların üzərində yeni körpülər inşa olunmuşdur. Artıq bu gün "Kiçik Venesiya şəhərciyi" öz gözəlliyi və müasirliyi ilə paytaxta, eləcə də müasirləşən, gözəlləşən bulvarımıza xüsusi yaraşıq verir.

Mübaliğəsiz demək olar ki, Dənizkənarı Bulvarımız gözəlləşir, böyüyür. Öz gözəlliyi ilə yanaşı, bura həmçinin insanların ən sevimli istirahət yeridir. Hər gün fəslindən asılı olmayaraq minlərlə insan bu istirahət mərkəzinə baş çəkir, yaradılmış şəraitdən zövq alırlar. Artıq doğma Bakımızın incisi Dənizkənarı Bulvar hər birimizin öyünə, qürur duya biləcəyi bir ünvandır.

Bu gün Dənizkənarı Bulvar qonaqları öz gözəlliyi ilə valeh etməyə tam hazırdır. Odur ki, yolunuzu gözləyirik, əziz qonaqlar!

**Əfqan ŞAHMAROV,**
**Nazirlər Kabineti yanında**
**Dənizkənarı Bulvar İdarəsinin rəisi.**